**MEMARLIQ**

**АРХИТЕКТУРА** **ARCHITECTURE**

# DÜNYA MEMARLIQ İRSİ ŞİRVANŞAHLAR SARAY KOMPLEKSİNİN MEMARLIQ ÖZƏLLİKLƏRİ

**Abbasova Şəhla Abdul Əhəd qızı**- m.ü.f.d., dosent, AzMİU, mr.mega.ferhad@mail.ru
**Abbasov Namiq Nazim oğlu**- f.ü.f.d., AzMİU, namiqabbasov@gmail.com

**Annotasiya.** Orta əsrlərə aid olan Şirvanşahlar kompleksi illər və əsrlər boyu alimlər tərəfindən ayrı-ayrılıqda dərindən öyrənilsə də bəzilərinin fikirləri heç də eyni olmamış və son zamanlara daha çox təsadüf edən fikirlərdə bu kompleksin xanəgah və yaxud da xatirə kompleksi olması irəli sürülmüşdür. Bu səbəbdən də tədqiqatımızı əsasən Azərbaycanın möhtəşəm tarixi abidəsi olan Şirvanşahlar sarayını orta əsrlərə aid olan möhtəşəm islam memarlığının ən gözəl nümunələri sayılan Saray komplekslərinin memarlığı ilə müqaisə edərək onların planlaşdırma kompozisiya strukturlarının və formalarının oxşar xüsusiyyətlərini üzə çıxarmaqdır. Orta əsrlərdə islamı qəbul etmiş demək olar ki, bütün dövlətlərdə tikilən Saray komplekslərinin eyni qanunlar əsasında şəhərdə özək olaraq planlaşdırılması və onların memarlığının eyni prinsiplər əsasında tikilməsi, islamın özünəməxsus memarlıq qanunlarının olmasını və bu qanunların sarayların tikintisində daha da dəqiq tətbiq edilməsini müasir dövrümüzə qədər gəlib çatmış Saray komplekslərinin memarlığı sübut etməkdədir. Məqaləmizin də əsasını Şirvanşahlar saray kompleksinə təsir edən memarlıq formaları ilə yanaşı, onun da memarlığının təsir etdiyi memarlıq amillərini üzə çıxararaq bu möhtəşəm kompleksin memarlıq cəhətdən saray kompleksi olduğunu təsdiqləməkdir. Ümumbəşər memarlığında öz izini qoymuş, orta əsrlərdə tikilən möhtəşəm “Topqapı” (Türkiyə, İstanbul-XV əsr), “Əlhəmra” (İspaniya, Qranada-XIII əsr) və “Əkbar saray” (Hindistan, Fatehpur Sikri-XVI əsr) saray komplekslərinin memarlığını, tarixini və kompozisiya strukturunu daha dərindən analiz edərək onların “Şirvanşahlar” (Azərbaycan, Bakı-XV əsr), saray kompleksi ilə müqaisəsi bu tədqiqatda işıqlandırılmışdır.

**Açar sözlər:** memarlıq irsi, saray kompleksi, islam memarlığı, abidə

# ARCHITECTURAL FEATURES OF THE WORLD ARCHITECTURAL HERITAGE SHIRVANSHAHS PALACE COMPLEX

**Abbasova Shahla Abdul Ahad**- PhD in architecture, ass. prof., AzUAC , mr.mega.ferhad@mail.ru
**Abbasov Namiq Nazim**- PhD in Philosophy, AzUAC, namiqabbasov@gmail.com

**Abstract.** Although the medieval Shirvanshah complex was studied by scientists for many centuries some of them put forward diferent ideas and recently it has been suggested that this complex served as a chapelor memorial complex. In this regard, our study is based on a comparison of the historical monument of the Middle Ages of the Shirvanshahs Palace with planning structural and compositional forms of palace complexes considered the best examples of medieval Islamic architecture. In almost all medieval states that adopted Islam the construction of palace complexes was based on the same principles of Islamic construction, as confirmed by palace complexes preserved to the present day. The article is based on identifying along with architectural form saffecting the complex, reveal the factors influencing its architecture and to prove that it is a palace complex as well. The article analyzes the architecture, history and composition of the Topkapi palace complex (Istanbul, Turkey, the 15$^{th}$ century); Al-Hamra (Spain, Granada, 13$^{th}$ century) and

Akbar palace (India, Fateh pur Sikri, 16th century) and their comparison with the Shirvanshahs palace complex.
**Keywords:** architectural heritage, palace complex, Islamic architecture, monument

Saray memarlığı əsrlər boyu memarlığın ən yüksək zirvələrindən biri olmuş və hələ qədim zamanlardan memarlıqda yaranan bir çox yeni forma və üslubların əsasən saray tikililərində ilk dəfə istifadə edilmişdir. Bir çox dövrlərdə şəhər quruluşunun dominantı sayılan saraylar əsasən müsəlman dövlətlərində daha da təmtəraqlı,memarlıq cəhətindən öz dövrlərinin ən müasir tələblərinə uyğunbir şəkildə tikilmişlər. Bu saray komplekslərinə “Şirvanşahlar” (Azərbaycan, Bakı-XV əsr), “Topqapı” (Türkiyə, İstambul-XV əsr), “Əlhəmra” (İspaniya, Qranada-XIII əsr) və “Əkbar saray” (Hindistan, FatehpurSikri-XVI-əsr) və s. aid etmək olar. Saray komplekslərinin müasir dövrlərə qədər bir çoxunun yaxşı vəziyyətdə gəlib çatması, eləcə də onların memarlığının möhtəşəmliyi hələdə mütəxəsisləri heyran etməsi ilə sübut olunur.

*Orta əsr müsəlman dövlətlərində tikilən saray komplekslərinin Şirvanşahlar kompleksi ilə oxşar xüsusiyyətləri.* İslam memarlığında saray komplekslərinin milli ənənələrə xas olan memarlığı, ornamentlərin gözəlliyi və incəliyi həmişə göz oxşamışdır.Vətənimiz Azərbaycanda bu cür abidələrin zənginliyi, eyni zamandadünya memarlığında iz qoyması həmişə alimlərin maraq dairəsi olmuşdur. Belə abidələr sırasına daxil olan 1964-cü ildə Dövlət tarixi-memarlıq qoruq-muzeyi elan edilən, 2000-ci ildə unikal memarlıq və mədəniyyət kompleksi sayılan, Bakı şəhərinin qala divarları ilə əhatə edilmiş tarixi hissəsi-YUNESKO-nun Ümumdünya İrsi siyahısına daxil edilən və 2001-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən dünya əhəmiyyətli memarlıq abidəsi kimi qeydiyyata alınan “Şirvanşahlar” saray kompleksidir [1, 2].

Tarixi məlumatlara əsasən Şirvanşahlar ansamblının əsas tikililəri Şirvan hökmdarları Şirvanşah I İbrahim (1382-1417) və I Xəlilullahın (1417-1465) hakimyətləri dövründə [3] «İçəri şəhər» qalasının təpələrindən birinin zirvəsində ucaldılmışdır. Kompleksin qarşısındakı terasdan demək olar ki, bütün “İçəri şəhər” və Bakı buxtası görsənməkdədir.“Şirvanşahlar” saray kompleksinin şəhərin qala divarları daxilində yerləşdirmə plan strukturuna diqqət yetirdikdə strateji cəhətdən əlverişli yerdə iç qala daxilində salınmışdır. Bu kompleksin tikildiyi yerin seçilməsi müsəlman şəhərlərinin planlaşdırma qanunlarına əsaslanmışdır.

Ansambl təxminən bir hektar sahəsi olan meydanda əsasən üç həyətdən ibarət olan əraziyə malikdir. Bəzi alimlərin etdikləri mülahizələrdə əsasən kompleksin tikildiyi sahənin dərə-təpəli mürəkkəb relyefə malik olması (5-6 m fərqli), müxətlif hündürlükdə yerləşən üç kiçik daxili həyətin əmələ gəlməsinə səbəb olmuşdur. Lakin dünya memarlığında müraciət etdikdə VIII-XV əsrləri əhatə edən dövrlərdə tikilən müsəlman memarlığına aid olan saray komplekslərinin memarlığının bir çoxlarında üç həyətlı tikilmişdirlər.

Bu cür memarlıq komplekslərinin tikintisi əsasən islam dininin yayılmağa başladığı dövrlərə təsadüf edir. Belə komplekslərə misal,erkən Abbasi saray kompleksi olan VIII-IX əsrlərdə Samarrada tikilmiş Hakan (ei·CevsakuI·Hakanl) və Bəlkuvara saraylarıdır [4], (şəkil 1). Hakan və Bəlkuvara saray komplekslərində bir-birinin ardınca yerləşdirilmiş, nümunəsi Əməvi saraylarından alınan üç bölməli planın təşkili göründüyü kimi, mərkəzi bağlanmış formada nəzərə alınmışdır [5]. Hakan sarayının ön görünüşü 11.10 m yüksəkliyində üç iti kəmərli cəbhəsi olan bir-birinə paralel üç eyvandan meydana gəlmişdir [6] Buda onu göstərir ki, bu saray üç həyətli görünüşə malik idi. Bəlkuvara saray kompleksinin kənar uzunluğu 1250 m olan düzbucaqlı formalı plana malik olub. Eninə düzbucaqlı formada olan kompleksin planı daxildən üç paralel hissəyə bölünmüşdür [6].

VIII əsrdə tikilən Abbasilərə aid edilən Hakan və Bəlkuvara saray komplekslərinin üç planlı və yaxudda üç həyətli olmaları memarlar tərəfindən məqsədli düşünülmüşdür. Ümumiyyətlə, islam dinində “Üç” rəqəminin bir çox dini kəramətinə inamın mövcudluğu, bu saray komplekslərin plan quruluşu üçə bölünməsi, hətta XV əsrlərdə tikilən “Şirvanşahlar”, “Əlhəmra” və həmçinində “Topqapı” sarayının ilk tikilən formasında üç həyətli olması təsadüfi olmamışdır. Buda onu göstərir

ki, Şirvanşahlar kompleksinin yerləşdiyi relyef həyətlərinin sayına yox,forma və quruluşuna təsir edə bilərdi.

Müasir dövrlərə çox yaxşı vəziyyətdə gəlib çatmış 1985-ci ildən "İstanbulun tarixi ərazisi"nin tərkibində YUNESKO-nun Ümumdünya irsi siyahısına daxiledilmiş [7], 1924-cü ildən isə muzey kimi fəaliyyət göstərən İstanbul şəhərinin Saray burnu adlanan ən gözəl yerində tikilən Topqapı kompleksi saray memarlığının ən möhtəşəm nümunələrindən biridir [8].Biz əsasən bu sarayın ilk tikilən dövrə aid memarlıq formalarını araşdırmamızın səbəbi Şirvanşahlar saray kompleksi ilə demək olar ki eyni dövrlərdə 1466-cı ildə tikilməsidir.



**Şəkil 1**. Samarra saray komplekslərin planları:
1. Hakan saray kompleksinin planı; 2. Bəlkuvara saray kompleksinin planı (849—859 illər)

Bu kompleksin indiki "Topkapı" sarayından fərqli olaraq daha kiçik sahəyə malik olması və tikililərinə iki saray binası, arz otağı, hazire, qala divarı və əsas kompleksə daxil olan baş tağlardır (şəkil 2). Topqapı kompleksi ilk tikildikdə 700.000 m.² sahə, 3 həyət və göl- bağcadan ibarət idi [9]. Birinci həyətdə asimmetrik plana malik olmaqla yanaşı, burada xüsusi günlərdə xalqın toplaşdığı və dövlətə müraciət edə biləcəyi bir yer olaraq nəzərə tutulmuşdur. İkinci həyətdə sarayın xidmətləri üçün nəzərdə tutulmuş. Üçüncü həyətdə şahın sarayı, arz otağı və hazire (məscid və məzarlar olan yer) yerləşirdi [10]. 4 tərəfdən sütünlar sırası ilə vurğulanmış arz odası (divanxana) kompleksin ən qədim binalarından sayılır (şəkil 2.). Burada sultanın vəkilləri, əsgər komandirləri və səfirləri qəbul etmək üçün möhtəşəm bir divanxana tikilmişdir.



**Şəkil 2.** Sultan Fatih dövründə tikilən Topqapı sarayının ümumi görünüşü, planı və Arz otağının görünüşü

Bu kompleksdə ilk tikildiyi formasının "Şirvanşahlar" saray kompleksindən fərqli olaraq iki sarayın mövcudluğu Arz, yəni Divanxananın Sultan sarayı ilə bir həyətdə tikilməsi, məscidin və türbənin yerləşdiyi həyətin hazire adlandırılmasıdır [10]. Buna baxmayaraq hər iki sarayın tikilmək üçün seçilən yerlərdən limanın görsənməsi, strateji baxımdan əlverişli yerdə olmaqları bənzərdir. Bu kompleksdə "Sirvanşahlar" saray kompleksi kimi üç əsas həyətdən ibarət olmuş və burada tikilən divanxananın memarlıq forması bənzərdir.

Bu komplekslərdən əlavə, dünya memarlığında iz qoymuş komplekslərdən biridə İspaniyanın memarlıq incisi sayılan, həmçinin də müsəlman memarlığının ən gözəl saray komplekslərindən biri

olan “Əlhəmra” saray ansamblıdır. Bu kompleks “Mavritan” üslubunda Müsəlman Nəsrəddinlər xanədanının (1232-ci ildən 1492-ci ilə qədər) hökmranlıq illərində (1238-1273-ci illər) tikilmişdir [11]. Müsəlman dünyasının ən gözəl saraylarından sayılan Əlhəmra saray kompleksi 1984-cü ildə YUNESKO-nun Ümumdünya irsi siyahısına daxil edilmişdir [12].

Saray kompleksinin tikintisi üçün Qranadanın ən hündür təpəsi olan “Qırmızı təpə” seçilmişdir. Kompleksin tikildiyi təpənin uzunluğu 850 m, eni 240 m-dir [13]. Bu saray kompleksi zəngin naxışlar ilə bəzədilmiş zalları olan “Elçilər zalı” rəsmi mərasimlərin saray bayramları üçün yaradılmış, “İki bacı zalı”, iki daxili həyəti olan həmişə yaşıl mərsin şpalerlərlə bəzədilmiş “Mərsinlər həyəti” və fəvvarənin ətrafında on iki yırtıcı heyvan heykəlin olduğuna görə “Arslanlar həyəti” hökümdarın sarayı belə adlandırılmışdı. “İbn Siraclar zalı”, “Məhkəmə zalı” və “Əlhəmra” sarayının ən şərq hissəsini bitişik tağlı holl, hovuz və kiçik məscid ilə Torre de las Damas müdafiə qülləsi tutur [14]. Bu kompleksin planlaşdırma strukturu əsasən üç hissədən ibarət olmuşdur [8].

Bu saray kompleksinin əvvəlki göstərilən komplekslərdən memarlıq üslublarındakı fərqliliyə baxmayaraq ümumi plan strukturunun bənzərliyi və başqa orta əsr müsəlman saraylarında olduğu kimi bu saray kompleksinin də şəhərin plan strukturunun strateji cəhətdən ən yüksək nöqtələrin birində tikilməsinin eyniliyi və saray kompleksinin üç hissədən ibarət olmağı və kompleksə daxil olan tikililərin bir çoxunun funksiya baxımdan eyniliyi yəqin ki təsadüfi olmamışdır. Əməvilərin dövründən başlayaraq, Abbasilərin dövründədə təkrarlanan bu forma araşdırdığımız saray komplekslərinin memarlıq strukturunda da təkrar olunmaqdadı.

İspaniyanın “Əlhəmra” saray ansamblından başqa Şirvanşahlar saray ansamblı ilə analoq Hindistan memarlıq incisi sayılan müsəlman memarlığı nümunəsi olan orta əsr hökümdar sarayı Moğol imperatoru Əkbərin saray ansamblının memarlıq xüsusiyyətlərini araşdırmaq xüsusi maraq kəsb edir. 1569-cu ildən 1585-ci ilə qədər Hindistanın Fütehpur Sihridə şəhəri paytaxt olmuş və bu şəhərdə imperator Əkbərin iqamətgahı sayılan gözəl bir möhtəşəm saray kompleksi tikilmişdir. Bu kompleks müasir dövürlərə qədər çox yaxşı vəziyyətdə qalmaqdadır [15], (şəkil 3). Əkbər Cəlaləddin Məhəmməd şah Babur şahlar imperiyasının davamçılarından olmuşdur. Hökmdarın bu şəhəri tikdirməsinin səbəbi hörmətlə yanaşdığı və rəğbət göstərdiyi ***“Ciştiyyə”*** təriqətinin (sufi yönümlü islam təriqəti) yaradıcısı Səlim Çiştinin orada yaşaması idi.



**Şəkil 3.** Hindistanın Fütehpur Sihridə şəhəri Monqol imperatoru Əkbərin saray kompleksi, saray kompleksinin planı və saray divanxanası

Kompleksin yerləşdiyi sistemli şəkildə planlanmış qalanın perimetri 14 kilometrdir, üç tərəfi qaladivarları ilə əhatəlidir. Burada doqquz qala qapısı və bir tərəfində çox böyük süni göl salınmışdır [16]. Bu saray kompleksinə daxıl olan əsas tikililər Am-Divanxanası, Khas-Divanxanası, Ankh Michauli Pavilionu, Türk Sultanının sarayı, Panchqızının Mahal Sarayı, SunahraMakan Sarayı, CodhBai Sarayı, Hava Mahal Sarayı, Birbala Sarayı, Cümə Məscidi, Buland Darvazası, Şeyx Səlim Çistinin və İsa Xanın türbələridir. Kompleksi əhatə edən qalanınıçindəki böyük məscid geniş bir sahəni əhatə edir, üç tərəfində dəhlizlər vardır. Caminin şimalında da iki türbə tikilmişdir, bunlardan biri Səlim Çistinindir, o biri isə sultanın məqbərələridir. Bu möhtəşəm saray kompleksinin planlaşdırma strukturuna diqqət yetirsək burada da bir neçə daxili həyətlər mövcuddur, dini tikili və türbələr, saray binaları və divanxanalar ayrı-ayrı həyətlərdə tikilmişlər.

Şirvanşahlar saray kompleksində olduğu kimi bu kompleksdə divanxanalar açıq qalereyaya çıxır, lakin bu kompleksdə iki divanxana mövcuddur ki, bunlardan Khas-Divanxanası şəxsi qəbul

üçün, Am-Divanxanası isə hökümdarın kütləvi qəbulu üçün nəzərdə tutulmuşdur (şəkil 3). Başqa oxşarlıq bu kompleksdə məscidin yerləşdiyi həyətdə iki türbənin tikilməsidir. Qeyd etmək vacibdir ki, bu kompleksdə "Çiştiyyə" yəni sufi Şeyxinin türbəsi tikilmişdir, buda onu göstərir ki, orta əsrlərdə Hindistanda da dini təriqətlərin saray mədəniyyətinə və memarlığına təsiri olmuşdur. Bəzi mütəxəssislər öz monoqrafiyalarında Şirvanşahlar kompleksini [17] xanəgah və yaxudda xatirə tikilisi kimi qeyd edirək xatirə ilə müqayisə edirlər.

Bu araşdırmaya münasibət kimi qeyd etmək istərdim ki, həqiqətən orta əsrlərdə Hindistanda Şirvanşahlar kompleksinin Divanxanasına bənzər bir çox türbə tikilmiş və onların əksəriyyətində sufizmi qəbul etmiş sülalələrin xatirə məqbərələri olmuşdu. Bu səbəbdəndə qeyd etmək vacibdir ki, onların əksəriyyəti Divanxananın tikintisindən sonrakı illərdə onun memarlığının təsiri altında tikilmişdirlər. Divanxananın tikintisi 1450-ci illərə təsadüf edir. Bununla yanaşı bu araşdırmada analiz olunan bütün saray komplekslərinin divanxanaları qalereyalar sırası ilə müşahidə olunurlar.

Belə türbələrə misal, Humayun məqbərəsidir ki, onuntikintisi 1565-ci ildə başlanır və 1572-ci ildə tamamlanır (şəkil 4). 1993-cü ildən etibarən YUNESKO-nun siyahısına daxil edilmişdir [18].



**Şəkil 4.** 1,2- Humayun məqbərəsinin ümumi görünüşləri və interyeri
3- İsfahanda Qırx sütun sarayında Şah Təhmasibin Humayun şahı qəbul etmə mərasiminin təsviri

Bu türbə Hindistan Şahı Humayunun xatirəsinə həsr olunmuşdur.O, 1544-cü ildə əfqan hakimi Şirxanla döyüşlərdə məğlub olaraq xanımı və yaxın əyanları ilə birlikdə səfəvi şahı I Təhmasibin yanına qaçır. Humayun Təbrizdə olduğu müddətdə Azərbaycan memarlığı və inçəsənəti ilə yaxından maraqlanır və onun möhtəşəmliyinə heyran qalır. Humayun hakimiyyət uğrunda mübarizədə Təhmasibdən dəstək istəyir. Bir neçə ildən sonra şah I Təhmasib 12 minlik ordunu sərkərdə Budaq xan Qacarın rəhbərliyində Hindistana göndərir, Səfəvi qoşunları əfqanları ölkədən qovub çıxarır və Humayun Böyük Moğolların taxt-tacını geriyə qaytarır.Yenidən hakimiyyəti ələ keçirdikdən sonra o, bir sıra Azərbaycan sənətkarlarını Dehliyə öz sarayına dəvət edir. Azərbaycanda yaşadığı müddətdə o,Təhmasib şahın təkidi nəticəsində sufizmi qəbul edir. Həttaməşhur "Mahur hindi" muğamının Humayun şahın Şah Təhmasibin sarayında olduğu dövrdə bəstələndiyi ehtimal olunur [16].

Deyildiyi kimi, Humayun Azərbaycandan qayıtdıqdan sonra Səfəvi memarlığının böyük pərəstişkarına çevrilmişdi. Bunu nəzərə alan Əkbər şah atası Hümayun ölümündən sonra onun xatirəsini əbədiləşdirmək üçün Dehlidə inşa etdirdiyi (1565 — 1569-cu illər) türbənin tikintisi üçün Azərbaycanlı memar Ağa Mirək Mirzə Qiyasını Hindistana dəvət edir. Humayun turbəsinin memar və ustaları Səmərqənd və İrandan gəlmiş olsalarda türbənin əsas memarı Ağa Mirək Mirzə Qiyası olmuşdur [16]. Şah Humayunun xatirəsinə tikilmiş məqbərənin memarı görkəmli memar Ağa Mirək Mirzə Qiyasın adı Hindistan mədəniyyətinin tarixinə qızıl hərflərlə yazılmışdır[16]. Ağa Mirək ən yaxşı Səfəvi ənənələrinə uyğun olan memarlıq formalarını bu məqbərənin memarlığında məharətlə istifadə etmişdir. Bilindiyi kimi, səkkiz vəcli tikililər əvvəllər də Azərbaycanda tikilmişdir və islam dünyasında geniş yayılmış sayılır.

Unutmamaq lazımdır ki, Şirvanşahlar kompleksinin Divanxanası tikildikdən sonra Azərbaycan memarı Mirək Mirzə Qiyas Hindistan memarlıq abidəsi sayılan 1565-ci ildə tikilmiş Humayun məqbərəsinin memarı olmuşdur. Bu məqbərənin tikilmə tarixçəsini araşdırdıqda çox

maraqlı məlumatlar ortaya çıxır. Səfəvilər dövrünün memarlıq üslubunda tikilən bu abidənin memarlıq xüsusiyyətləri Hindistanın Moğol memarlığına böyük təsir etmişdir [19].

Memar Mirək Mirzə Qiyasın ucaltdığı Humayun məqbərəsinin prototipi kimi əsasən Tac Mahal məqbərəsi sayılır [19]. Tac Mahalı tikdirən Cahan şah Humayun şahın nəticəsi olmuş, yuxarıda qeyd olunan Əkbər şah isə Humayun şahın oğlu olmuşdur. Bütün bu memarlıq abidələrinin bir-birinə oxşaması ilk tikilən tikili olan Humayun məqbərəsinin memarının Azərbaycanlı olması və çox maraqlı bir tarixçəsinin də mövcud olması ilə izah edilə bilər. Ümumiyyətlə Hindistan Moğol memarlığını dahada dərindən araşdırdıqda, onun bir çox abidələrinin Şirvanşahlar kompleksinə aid tikililəri ilə bənzərliyinin şahidi oluruq. Belə tikililərdən biridə hökümdar Əkbərin 1562-ci ildə hərbi sərkərdəsi olan Adhan xan üçün tikilən məqbərənin memarlıq formasıda ola bilər [20] (şəkil 6). Bu türbə Hindistanda Adxan xanın (Adxan xan Əkbər şahın süd qardaşı olmuşdur) və onun anasının xatirəsinə tikilmiş və bu sülalənin dini tarixini araşdırdıqda onlarda sufi təriqətindən olmaqları da aşkar olunur. Bu məqbərənin üslub fərqliliyinə baxmayaraq umumi plan strukturunun Azərbaycan divanxanaları ilə oxşarlığı və burada əsasən simvolik olaraq sufizmin təsiri altında olması da şübhəsizdir (şəkil 5).

1.
2.


**Şəkil 5.** 1- Adham xanın türbəsi və interyerinin fraqmentləri
2- Şirvanşahlar saray kompleksinin Divanxanası və interyerinin fraqmentləri

Bu türbənin tikilmə tarixi Şirvanşahlar kompleksindən sonraya təsadüf edir.6-cı şəkil əsasında dəqiqliklə demək olar ki, Hindistanda tikilən Adham xanın türbəsi Şirvanşahlar kompleksinin Divanxanasının ən yaxın analoqlarındansayılsada funksiya baxımdan fərqliliyi və memarlığında hind memarlıq xüsusiyyətlərini daşıması diqqət çəkir. Hindistanda orta əsrlərdə xatirə tikililərinin memarlığına daha çox önəm verildi və Hindistanda moğol memarlığının təsiri altında tikilən Humayun məqbərəsinin prototipi əsasında XVI əsrdə bir çox türbə tikildi. Orta əsr Azərbaycan tarixinə nəzər salsaq dəqiqliklə demək olar ki, Şirvanşahlar dövlətini məğlubiyyətə uğradan (Şirvanşahlar dövləti təqribən 1000 il, 1538 ilə qədər varlığını sürdürmüşdür) [20] Şəfəvilərin hökümdarı Təhmasib şah Hindistanda sufizim təriqətinin Şah Humayunun yaymasına təsir etmiş və Şirvanşahlar Divanxanasına bənzər olan xatirə tikililəridə məhz ilk olaraq Şirvanşahlar dövlətinin süqutundan sonra, daha dəqiq Humayun şahın ölümündən (Humayun şah d. 6 Mart 1508, Kabil - ö. 26 Ocak 1556, Dehli) [22] sonra yəni Memar Mirzə Qiyasın Humayun türbəsini (1565 — 1569) tikdirdikdən sonra başlamışdır.

**Nəticə.** Bütün bu araşdırmalara əsasən demək olar ki, orta əsrlərdə tikilən hökümdar saray kompleksləri müəyyən dövrlərdə (XIII-XVII əsrlər)müsəlman ölkələrində şəhərsalma və planlaşdırma strukturunönzəyi olmuş, üslub cəhətdən fərqlənməsi əsasən binaların fasad və interyerində öz əksini taparaq, memarlıq planlaşdırma strukturları və bir çox memarlıq formaları bir birinə bənzər olmuşlar. Araşdırılan komplekslərdə saray binalarından əlavə olaraq “Divanxananın” (hökümdarların qəbul zalları), dini tikilər ilə yanaşı xatirə tikililərinin, türbələrin (“Şirvanşahlar”, “Əkbərin” və “Topqapı” saray kompleksləri), həmçinində bəzilərində sufi şeyxlərinin türbələrinin mövcudluğu (Şirvanşahlar və Əkbərin” saray kompleksiləri), yəni bənzər eyni funksiyalı tikililərin bir daxili həyətdə toplanması, ikinci dərəcəli tikililər olan hamam və ovdanların mövcudluğu,

memarlıq cəhətdən bütün bu komplekslərdə “Divan”ın yerləşdiyi məkanın eyni kompozisiya strukturuna malik olması, yəni yerləşdiyi həyətlərin qalereya ilə əhatə edilməsi (“Şirvanşahlar”, “Əkbərin” və “Topqapı” saray kompleksləri), bu komplekslərin plan strukturlarının əsasən üç hissədən ibarət olmaları (“Şirvanşahlar”, “Əlhəmra” və “Topqapı” saray kompleksləri) daxili həyətin mövcudluğu və sonunda bu memarlıq incilərinin şəhərin ən yüksək və ən görkəmli yerlərində «İç Gala»- da yerləşməsi məqsədi, təkcə strateji baxımdan müdafiyədən ötrü deyil, həmçinin şəhərin yaşayış və başqa tikililərinin üzərində hakimlik edərək dövlətin güc və qüdrətini özünün möhtəşəm memarlıq formaları ilə ifadə edərək xalqın hökümdara itaət etməsini artırırdı.Şirvanşahlar sarayının dünya mirasında iz qoymuş saraylar ilə bir çox oxşar cəhətlərinin olması, kompleksin hökümdar sarayı olmasını birdaha təsdiqləməsi ilə yanaşı bu möhtəşəm memarlıq formasının hətta başqa bir hökümdarlığın (Hindistan) memarlıq axınına təsir etməsi Azərbaycan memarlığının möhtəşəmliyini sübut etməkdədir.

**Nəticə.** Memarlıqda, müqəddəs kitabımız Qurani Kərim ayətlərinin islamın yarandığı dövrdən başlayaraq müasir dövrə qədər istifadəsi həmişə olmuşdur. Buna baxmayaraq islamda böyük mənaları olan rəqəmlərin memarlıqda istifadəsi həmişə bir sirr olaraq qalmaqdadır. Qurani Kərimin bu ayəsində;"Allah, onların nəzdində olub bitənləri– elmiylə əhatəyə almış və hər şeyi bir-bir saymışdır." (Çin, 72/28) Ayədə bilindiyi kimi müqəddəs kitabımızda bir çox rəqəmin xüsusi mənaları mövcud olmaqdadır. Bu rəqəmlərdən biri olan 3 rəqəminin xüsusi mənasının olmasına insanlar arasında inanılmasından əlavə müqəddəs kitabımız Qurani Kərimin ayələrindədə öz təsdiqini tapmaqdadır. Allah təkdir və təki sevər. 3 tək rəqəmlilərin ilkidir və bu səbəblə ilk mərtəbə 3-ə bərabərdir söylənilir [24]. Qurani Kərimdə əsasən tək rəqəmlərin özəlliklərini bir çox alim araşdıraraq bu mövzu haqqında monoqrafiyalar yazmışlar ki, buna misal olaraq 3 və 7 saylarına aid olan "Mu'cizetü'l-karnil-ışrinfi Keşfi Sübəyyeti və Süləsiyyeti Evamiri'l-Kur'âni'l-Kerîm" (Qur'ân-ı Kərim'in 3-lü və 4-lü Əmirlərin Kəşfində 20-ci əsr Möcüzəsi) adlı kitabı göstərmək olar. Quran, müsəlmana nəfsin 3 mərhələsindən bəhs edir. Dinimizdə mübarək 3 dənə ay var-Rəcəb, Şaban və Ramazan. Məlumdur ki, Peyğəmbər Əfəndimiz yatmazdan əvvəl, Fatihəylə bərabər 3 dəfə Fələq, Nas veİhlas surələrini oxuyardı[23]. (2/Bakara, 196); (2/Bakara, 228); (3/Al-i İmran, 41); (11/Hud, 65); (36/Yasin, 14) bunalarda olaraq mələklərin bu kadar kanatları olduğu (35/Fatır, 1) və Qurani Kərimdə olan bir çox ayələrdə 3 sayı istifadə olunmaqdadır. Beləliklə, dinimizdə 3 rəqəminin mənasını araşdırmaqda məqsədimiz əlbəttə ki, nümunə göstərdiyimiz saray komplekslərinin 3 hissədən inşa edilmələrinin təsadüfi deyil, məqsəd yönlü tikilməsini sübut etməkdir.

**Ədəbiyyat**

1. Quranı Kerim
2. Walled City of Baku with the Shirvanshah's Palace and Maiden Towe". UNESCO
3. Усейнов М., Бретаницкий Л., Саламзаде А. История Архитектуры Азербайджана. Гос. Изда-во литер., архит. и строит.матер., 1963
4. Бренд Б. Искусство ислама. Издательство ФАИР. стр.345, Москва, 2008
5. Hıllenbrand R. İslam sanatı ve memarlığı. Homer Kitabevi ve Yayıncılık Ltd. Şti. Türkçe 1, səh. 305, İstanbul, 2005
6. İslam Ansiklopedisi-1 Cilt.Türkiye Diyanet Vakfı Yayınları, 715s.,Türkiye, 2016
7. https://az.wikipedia.org/wiki/Topqapı_sarayı
8. Azərbaycan Sovet Ensiklopediyası. On cilddə. Cild IX.- Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası, 600s,1979
9. Kuban D. Osmanlı mimarisi. Yem-Yapı, 720s, İstanbul, 2007
10. Eldem F., Akozan H. Topqapı sarayı. Kultür və Turizim Bakanlığı. Milli Eğitim basınevi-129s., İstanbul, 1982
11. Luis José García-Pulido The Alijares Palace [Qasṛ al-Dishār] at the Alhambra: a bioclimatic analysis. Journal of Medieval Iberian Studies, Download by: [Australian National University], 2016
12. https://planetofhotels.com/ispaniya/granada/dvorec-algambra

13. Низовский А.Ю. 500 чудес света. 598 с. Москва, 2011
14. Bayon F., Lluis Casals. La Alhambra de Granada. Triangle Postals, 192s., 2014
15. Веймарн Б.В., Виппер Б.Р., Губери А.А. др. Всеобщая история искусств. Том 2. Книга 2 Искусство средних веков. Москва, Искусство, 1028 с, 1961
16. Əliyev B., Ayvazalı B. Hindistan Etnoqrafiyasi. Elm və təhsil, 238s., Bakı, 2017
17. Тагиев И. Дворец Ширваншахов или Ханака С.Я. Бакуви?” Баку, Издательство Çaşioğlu. 96 стр., 2003
18. http://whc.unesco.org/en/list/232
19. Abasov A.X., Abasov E.A., Hüseynova E.N. İslam Memarlığı və İnşaat. 84 s., Bakı, 2010
20. http://www.wikiwand.com/ru//Гробница_Адхам-хана
21. Aşurbeyli S. Z. Şirvanşahlar dövləti VI-XVI əsrlər. Avrasiya Press. 416 səh., 2006
22. İslam Ansiklopedisi. 18 Cilt. Türkiye Diyanet Vakfı Yayınları. 550 s.,Türkiye, 1998
23. https://camiakademi.com/tek-sayilarin-gizemi/
24. https://indigodergisi.com/2018/03/sayilar-ozel-sirlari-tasavvuf/

**References**

1. Quranı Kerim
2. Walled City of Baku with the Shirvanshah's Palace and Maiden Towe". UNESCO
3. Usejnov M., Bretanickij L., Salamzade A. Istoriya Arhitektury Azerbajdzhana. Gos. Izda-vo liter., arhit. i stroit.mater., 1963
4. Brend B. Iskusctvo islama. Izdatel'stvo FAIR. str.345, Moskva, 2008
5. Hıllenbrand R. İslam sanatı ve memarlığı. Homer Kitabevi ve Yayıncılık Ltd. Şti. Türkçe 1, səh. 305, İstanbul, 2005
6. İslam Ansiklopedisi-1 Cilt.Türkiye Diyanet Vakfı Yayınları, 715s.,Türkiye, 2016
7. https://az.wikipedia.org/wiki/Topqapı_sarayı
8. Azərbaycan Sovet Ensiklopediyası. On cilddə. Cild IX.- Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası, 600s,1979
9. Kuban D. Osmanlı mimarisi. Yem-Yapı, 720s, İstanbul, 2007
10. Eldem F., Akozan H. Topqapı sarayı. Kultür və Turizim Bakanlığı. Milli Eğitim basınevi-129s., İstanbul, 1982
11. Luis José García-Pulido The Alijares Palace [Qasṛ al-Dishār] at the Alhambra: a bioclimatic analysis. Journal of Medieval Iberian Studies, Download by: [Australian National University], 2016
12. https://planetofhotels.com/ispaniya/granada/dvorec-algambra
13. Nizovskij A.YU. 500 chudes sveta. 598 s. Moskva, 2011
14. Bayon F., Lluis Casals. La Alhambra de Granada. Triangle Postals, 192s., 2014
15. Vejmarn B.V., Vipper B.R., Guberi A.A. dr. Vseobshchaya istoriya iskusstv. Tom 2. Kniga 2 Iskusstvo srednih vekov. Moskva, Iskusstvo, 1028 s, 1961
16. Əliyev B., Ayvazalı B. Hindistan Etnoqrafiyasi. Elm və təhsil, 238s., Bakı, 2017
17. Tagiev I. Dvorec SHirvanshahov ili Hanaka S.YA. Bakuvi?” Baku, Izdatel'stvo Çaşioğlu. 96 str., 2003
18. http://whc.unesco.org/en/list/232
19. Abasov A.X., Abasov E.A., Hüseynova E.N. İslam Memarlığı və İnşaat. 84 s., Bakı, 2010
20. http://www.wikiwand.com/ru//Grobnica_Adham-hana
21. Aşurbeyli S. Z. Şirvanşahlar dövləti VI-XVI əsrlər. Avrasiya Press. 416 səh., 2006
22. İslam Ansiklopedisi. 18 Cilt. Türkiye Diyanet Vakfı Yayınları. 550 s.,Türkiye, 1998
23. https://camiakademi.com/tek-sayilarin-gizemi/
24. https://indigodergisi.com/2018/03/sayilar-ozel-sirlari-tasavvuf/

Redaksiyaya daxil olma /Received 16.12.2019
Çapa qəbul olunma /Accepted for publication 17.01.2020